## *Aysel Nazim qızı*



*1989-cu ildə Bakı şəhərində anadan olub. Sabunçu rayonundakı 67 saylı tam orta məktəbdə oxuyub, ADBS kollecini fərqlənmə ilə bitirib. Orta məktəb illərindən ədəbi-bədii yaradıcılığa həvəs göstərir. Respublika mətbuatında mütəmadi olaraq bədii və publistik yazılarla çıxış edir. "Ədalət", "Bütöv Azərbaycan", "Kredo", "Təhsil problemləri", "Azərbaycan müəllimi" qəzetlərində və "Yurd" , " Məşəl", "Sənətkar" jurnallarında bədii nümunələri işıq üzü görüb. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Qızıl qələm media mükafatçısıdır. "Duyğu Dənizi; Qəlbimin harayı" adlı şeirlər kitabının, "Kompyuterə Texnoloji Yanaşma" adlı metodik vəsaitin müəllifidir. Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində müəllim vəzifəsində çalışır.*

### MƏNİM BU SEVGİM

Bahara döndərdi duyğularımı,
Şipşirin eləyib yuxularımı.
Üstünə sərmişəm könül varımı,
Kövrək bir nəğmədir mənim bu sevgim.

Hər gün sevincimin dodağı qaçır,
Duyğular sinəmdə gül-çiçək açır.
Elə bil ruhuma işıq, nur saçır,
Kövrək bir nəğmədir mənim bu sevgim.

Çiçəyə bürünüb yaylaqlar kimi,
Pıçıldayır körpə dodaqlar kimi.
Çağlayır dumduru bulaqlar kimi,
Kövrək bir nəğmədir mənim bu sevgim.

Oxu könlümdəki eşqin sətrini,
Daim uca tutdum onun xətrini.
Ayselin ruhuna səpib ətrini,
Kövrək bir nəğmədir mənim bu sevgim.

### VƏTƏN

Ömrümə ələnən ilahi nursan,
Ana laylası tək qəlbə dolursan.
Yamyaşıl geyinmiş gəlin olursan,
Bir özgə aləmdir baharın, Vətən.

Nəğməyə bələnib gözəl çağların,
Ərən oylağıdır uca dağların.
Könüllər oxşayır barlı bağların,
Ümid ətirlidir yolların, Vətən.

Aysel, bu torpaqda halallıq ara,
Zirvələr heykəldir namusa, ara.
Sənin sorağına gələn dostlara,
Sevinclə açılır qolların, Vətən

### KÖNLÜM QARABAĞA GETMƏK İSTƏYİR

Düşmən tapdağında binələrimiz,
Dərdə meydan olub sinələrimiz.
Hər gün ağı deyir nənələrimiz,
Könlüm Qarabağa getmək istəyir.

Ayrılıq küləyi yolur saçımı,
Heç kim yarıtmadı ehtiyacımı.
Yer yoxdu dəfin edim ağrı-acımı
Könlüm Qarabağa getmək istəyir.

Qələbə yolları dönüb nağıla,
Düşmən tifaqı gərək dağıla.
Daha təsəllilər batmır ağıla,
Könlüm Qarabağa getmək istəyir.

Burda babalarım xaniman qurdu,
Hər gün əzizlədi, hər gün qorudu.
Yaralı qəlbimin yaralı yurdu,
Könlüm Qarabağa getmək istəyir.

Arzular əlində tutubdu çicək,
Qələbə ətirli o gün gələcək.
Dur, əsgər qardaşım, qılıncını çək,
Könlüm Qarabağa getmək istəyir.

### ÜÇRƏNGLİ BAYRAQ

Hər vaxt uca durur, hər vaxt baş durur.
Hər gün küləklərlə o savaş qurur,
Damarda çağlayan qanı coşdurur,
Göydə qanad çalır üçrəngli bayraq!

Qoy gözün üstünə üç qumaş rəngi,
Qoynundan boylanır könül ahəngi.
Sanki salğalanır "Heyratı","Cəngi",
Göydə qanad çalır üçrəngli bayraq!

Müqəddəs andıyla yaranıbdır tən,
Onu öz bağrına basıbdır vətən.
Vüqarla boylanır "Lələtəpə"dən,
Göydə qanad çalır üçrəngli bayraq!

Könül fərəhidir bu od, bu ocaq,
Milyon-milyon qəlbə açıbdı quvaq.
Bir gün Qarabağda dalğalanacaq,
Göydə qanad çalır üçrəngli bayraq!

### HƏYAT

Duyğular sinəmdə iməkləyən gün,
Əllərim ümidi ətələyən gün,
Arzular gözümdə çiçəkləyən gün,
Bəxtimi gözündə çalıbdı həyat.

Fələyin bəxtimlə çoxdu davası,
Yaralı könlümün yoxdu dəvası,
Ruhuma əsəndə bahar havası,
Sevgimi əlimdən alıbdı həyat.

Min ah çiçəklədi bir arzu-kamda,
Qəfil çilikləndi arzu da, kam da.
Əllərim vüsala yetən məqamda,
Ayrılıq havası çalıbdı həyat.

Fələk taleyimdə dərdi yolları,
Gözümün yaşına sərdi yolları.
Keçir sinəm üstdə dərdin yolları,
Ömrümü əzaba salıbdı həyat.

Gözü misra-misra dolan şairəm,
Dərdin bağcasında solan şairəm.
Bəxtimi ovcundan salan şairəm,
De. məndə ta nəyin qalıbdı, həyat?!

### BİLMİRƏM

Qəlbimdən asılan sənin həsrətin,
Daş kimi ağırdı, çəkə bilmirəm.
Elə saray tikib dərd gözlərimdə,
Bircə daşını da sökə bilmirəm.

Ümidin ətəyi əllərimdədir,
Ağrısı, acısı illərimdədir.
Kədərin qırovu tellərimdədir,
Telimi çiynimə tökə bilmirəm.

Alışır sinəmdə həsrətin közü,
Qaralıb sən gedən yolların közü.
Baş qoyub köksümə dözümün özü,
Dərdimin boynunu bükə bilmirəm.

Dərdim yaz xonçası, eşqin səməni,
Sanırdım əbədi sevirsən məni,
Gəl yu göz yaşımda, gəl yu sən məni,
Daha göz yaşları tökə bilmirəm.

### ƏLLƏRİMİ BURAXDIN

Qəlbimdəki kövrək-kövrək duyğular,
Yazmadığın məktubların sətridir.
Ürəyimdən misra-misra yağan söz,
Bu sevginin qoxusudur, ətridir.

Xəyalların əl eyləyir uzaqdan,
Boylanıram yollarına hər səhər,
Gözlərimin yağışında yuyunur,
Ruhumdakı bi intizar, bu qəhər.

Qapısını çırpıb gedir ümidlər,
Sənsiz qalan bu taleyin, bu baxtın.
Mən ki , sənsiz bu şəhərdə qəribəm,
Zalım, niyə əllərimi buraxdın.

Kredo.-2020.-18 may.-S.9.